# Qafqaz albanlarının 2500 yaşlı varisləri

*Udilərin zəngin tarixi və mədəniyyəti saxta erməni təbliğatını ifşa edən əsas mənbələrdir*

***Kiçik bir qəsəbə təsəvvür edin, 5 ibadət ocağı var: 3 kilsə, 2 məscid. Burada səhər azan, günorta kilsə zənglərinin səsi eşidilir. Fərqli xalq, etnomədəniyyət, dini konfessiya nümayəndələri birgə yaşayır, xoş günlərində də, acılarında da bir-birinə dəstək, dayaq dururlar...***

***Qəbələnin Nic qəsəbəsindən bəhs edirik...***

***Azərbaycan tolerantlığının bir nümunəsindən...***

**Onlar haqqında Herodot yazıb**

Qafqaz Albaniyasının ən qədim tayfalarından biri də udilər (onların qədim əcdadları uti adlandırılırdı) olub. Bu qədim xalq barədə hələ 2500 il əvvəl Herodot "Tarix" əsərində məlumat verib. Marafon döyüşünü (m.ə. 490-cı ildə yunan-fars döyüşü) təsvir edən müəllif göstərir ki, fars ordusunda, XIV Satrapın tərkibində utilərin əsgərləri də vuruşurdular.

O cümlədən eramızdan əvvəl I əsrdə yaşamış Strabonun "Coğrafiya" əsərində Xəzər dənizi və Qafqaz Albaniyası haqqında məlumatda utilərdən danışılır.

Udi-uti sözünə isə termin kimi ilk dəfə Böyük Plininin (I əsr) "Həqiqi tarix" əsərində rast gəlinir. Bunlarla yanaşı, bir çox qədim müəlliflərin əsərlərində onlarla bağlı məlumatlar var və həmin mənbələrdə bildirilir ki, utilər alban çarlığının yaranmasında mühüm rolu olan 26 tayfadan biridir.

Tarixən udilər daha çox Xəzər dənizindən Qafqaz dağlarınacan Kür çayının həm sağ, həm də sol tərəfində məskunlaşıblar. Azərbaycanın ərazisində yaranan ən qədim dövlət, e.ə. IV əsrdən VIII əsrin əvvəlinədək mövcud olan Qafqaz Albaniyası vilayətlərindən biri Uti adlanıb.

Tarixən çoxallahlığa sitayiş edən udilər IV əsrin əvvəllərində xristianlığı qəbul ediblər. VII-VIII əsrlərdə ərəblər Qafqaz Albaniyasını işğal edərək əhalinin böyük hissəsinə, o cümlədən udilərə islam dinini qəbul etdirsələr də, onların bir hissəsi - Qarabağ, Şəki-Zaqatala bölgəsindəki dağlıq ərazilərdə yaşayanlar öz siyasi-mədəni birliyini, dilini, etnik mənsubiyyətini qoruya biliblər.

**Bütün udilərin tarixi vətəni Azərbaycandır**

VII əsrdə ərəb xilafətinin icazəsi ilə alban kilsəsi erməni qriqoryan kilsəsinin tərkibinə daxil edilir. O zamandan etibarən, rəsmən alban katolikosunun qalmasına baxmayaraq, alban xristianlarının zorla erməniləşdirilməsi siyasəti aparılır.

(Ardı gələn sayımızda).

# "Azercell"in «Rəqəmsal dünyasını bölgənizdə gözləyin» layihəsinə uyğun olaraq Qəbələyə səfəri maraqla qarşılanıb

Dünya trendlərinə uyğun xidmətləri, ən effektiv həlləri, həmçinin sərfəli kampaniyaları ilə ölkə əhalisinin əksəriyyətinin seçimi olan və fəaliyyətinin yeni rəqəmsal dövrünə qədəm qoyan "Azercell Telekom" MMC-nin "Rəqəmsal dünya bölgələrdə" adlı yeni layihəsi Qəbələ sakinləri tərəfindən böyük rəğbətlə qarşılanıb. Belə ki, bu səfər zamanı Azərbaycanın rabitə bazarının lider mobil operatoru "Azercell" 5 mindən çox insanı bir araya toplamağa müvəffəq olub. "Azercell" rayon sakinləri ilə görüşərək, onları yeni rəqəmsal məhsullar olan "Kabinetim" tətbiqi, "BuludCinema", "TelekomTv" xidmətləri, mobil internet cihazları və www.azercellim.com <http://www.azercellim.com/> onlayn bazası, rabitə xərclərinə qənaət etmək imkanı yaradan "Sərbəst", "GəncOL" və "Sadə" tarif paketləri ilə tanış edib. Bundan əlavə, səfər çərçivəsində müxtəlif proqramlar, intellektual və əyləncəli oyunlar, müsabiqələr keçirilib, abunəçilərə hədiyyələr paylanıb.

Ölkəmizə 4G xidmətini ilk təqdim edən şirkət olaraq "Azercell" abunəçilərinin gözləntilərini qarşılamaq və respublikamızın bütün sakinlərini bərabər texnoloji imkanlarla təmin etmək üçün 2018-2019-cu




illər ərzində LTE şəbəkəsinin bütün ölkə üzrə gücləndirilməsi və genişləndirilməsini həyata keçirib. Bunun nəticəsində şirkət Azərbaycanın 57 şəhər və rayonunda əhali əhatəsi dairəsində 86,2 faiz, coğrafi ərazi əhatə dairəsində isə 61,4 faiz artıma nail olub. Bu müddətdə 1007 yeni LTE stansiyası qurularaq, 4G stansiyalarının ümumi sayı 1667-yə çatdırılıb, günlük LTE data istifadəsində 49,6 faiz, LTE yükləmə və ötürmə sürətində isə 16 faizədək artım qeydə alınıb. Hazırda ölkə üzrə 7000-dən çox stansiya daimi bağlantını təmin etməkdədir.

**"Qəbələ"**

# Maraqlı görüş

Bu günlərdə rayonun bir qrup ağsaqqalı ilə Qəbələ Mədəniyyət Mərkəzi işçilərinin görüşü keçirilmişdir. Görüşü mərkəzin əməkdaşı Günay Kərimova açmışdır.

Rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev ağsaqqalların keçdiyi həyat yolu barədə görüş iştirakçılarına geniş məlumat vermişdir. Şura sədri keçmiş gəncliklə bu günkü gəncliyi müqayisə edərək bildirmişdir ki, indiki gənclərimiz müstəqil, azad ölkədə yaşayırlar. Onların hərtərəfli təhsil almaq, həyatda fəal mövqe tutmaq üçün imkanları daha genişdir. Ağsaqqallardan Süleyman Mehdiyev, Arif Şahverdiyev və başqaları çıxış edərək görüşün təşkilatçılarına təşəkkürlərini bildirmişlər.

Görüş iştirakçılarından Müsavər Qasımov, Natəvan Mürşüdova və digərləri ağsaqqal məsləhətinə həyat təcrübələrinin öyrənilməsinə həmişə ehtiyac olduğunu qeyd etmişlər.

Ağsaqqallar görüş iştirakçılarının çoxsaylı suallarını cavablandırmışlar.

**Azər AZAYEV,**
**rayon mədəniyyət mərkəzinin işçisi.**

# 2019-cu ilin yanvar-iyun aylarında Qəbələ rayonunun sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri

**Ümumi məhsul buraxılışı və xidmətlərin istehsalı**

2019-cu ilin yanvar-iyun aylarında Qəbələ rayonunda fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən iqtisadiyyatın əsas sahələri (sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, ticarət və nəqliyyat vasitələrinin təmiri) üzrə məhsul buraxılışı və xidmətlərin göstərilməsi əvvəlki ilin eyni dövrünə nisbətən 2,0 faiz artaraq 103,6 milyon manat olmuşdur. İstehsal edilmiş məhsulların rayon əhalisinin hər nəfərinə düşən həcmi 967,2 manat təşkil etmişdir.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-iyun aylarında, kənd təsərrüfatı məhsulu istehsalı 14,6 faiz, ticarət xidmətinin həcmi 24,2 faiz, informasiya və rabitə xidmətinin həcmi 4,8 faiz, nəqliyyat və anbar təsərrüfatı xidmətinin həcmi 29,0 faiz artmış, sənaye məhsulu istehsalı 9,8 faiz, tikinti-quraşdırma işlərinin həcmi isə 12,6 faiz azalmışdır.

Hesabat dövründə kənd təsərrüfatında 27,0 milyon manatlıq və ya ümumi məhsulun 26,0 faizi qədər, ticarət sahəsində 27,6 milyon manatlıq (26,7 faiz), tikintidə 22,0 milyon manatlıq (21,2 faiz), sənayedə 24,0 milyon manatlıq (23,2 faiz), nəqliyyat və anbar təsərrüfatında 2,3 milyon manatlıq (2,3 faiz), informasiya və rabitə xidmətlərində 0,6 milyon manatlıq (0,6 faiz) məhsul və xidmətlər istehsal edilmişdir.

Məhsul və xidmətlərin 70,5 faizi istehsal sahələrinin, 29,5 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

**Kənd təsərrüfatı**

2019-cu ilin yanvar-iyun aylarında rayonda kənd təsərrüfatı müəssisələri, ailə kəndli və ev təsərrüfatlarında 27,0 milyon manatlıq məhsul istehsal olunmuşdur. Bu da, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 milyon manat (14,6 faiz) çoxdur.

**Bitkiçilik.** Rayonda 2019-ci ilin məhsulu üçün əkilmiş 23785,0 hektar sahənin 17838,0 hektarı (75,0 faizi) ailə kəndli ev təsərrüfatlarının, 5947,0 hektarı (25,0 faizi) isə kənd təsərrüfatı müəssisələrin payına düşmüşdür.

Mövcud əkinlərin 20190,0 hektarını (84,9 faizini) keçən ilin payızında dən və yaşıl yem üçün əkilmiş arpa və buğda, 215.0 hektarını (0,9 faizini) əvvəlki illərdən əkilmiş çoxillik otlar, 3379,9 hektarını (14,2 faizini) isə bu ilin yazlıq bitkilərinin əkini təşkil etmişdir

2019-cu ilin yanvar-iyun aylarında yazlıq bitkilərin əkin sahəsi keçən ilin müvafiq dövrü ilə müqayisədə 235,8 hektar və ya 6,5 faiz azalaraq 3379,9 hektar olmuşdur. Hesabat dövründə rayonda əkilmiş yazlıq əkinlərin 788,5 hektarını (23,3 faizini) yem bitkiləri, 408,0 hektarını (12,1 faizini) tərəvəz, 520,0 hektarını (15,4 faizini) kartof, 802,0 hektarını (41,2 faizini) dənli və dənli paxlalılar (ondan 513,0 hektar vələmir) 267,4 hektarını (7,9 faizini) texniki bitkilər (tütün və şəkər çuğunduru), 2,0 hektarını (0,1 faizini) bostan bitkiləri təşkil edir.

**Heyvandarlıq.** 2019-cu ilin ilk altı ayı ərzində 2035,1 ton diri çəkidə ət, 20675,2 ton süd, 1148,0 min ədəd yumurta, 312,5 ton yun istehsal olunmuşdu. 2018-ci ilin müvafiq dövrünə nisbətən süd istehsalı 0,4 faiz artmışdır.

2019-cu ilin iyul ayının 1-i vəziyyətinə rayonun təsərrüfatlarında 45888 baş iri buynuzlu malqara, o cümlədən 22843 baş inək və camış, 190201 baş qoyun və keçi,845 baş donuz mövcud olmuşdur. İlin əvvəlinə nisbətən iri buynuzlu mal-qaranın sayı 0,9 faiz, o cümlədən inək və camışların sayı 0,1 faiz, qoyun və keçilərin sayı 0,4 faiz azalmışdı.

Rayonda mal-qara arasında süni mayalanma işinin təşkili və onun genişləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdü. 01 iyul 2019-cu il tarixə 1758 baş heyvan süni yolla mayalanmış və süni yolla mayalanmış heyvanlardan 1064 baş bala alınmışdır.

**Sənaye**

Qəbələ rayonunun sənayesi əsasən qida məhsulları, tikinti materiallarının istehsalı, elektrik enerjisi və qazın bölüşdürülməsi və təchizatı, suyun təmizlənməsi və paylanması sahələrini əhatə edir. 2019-cu ilin yanvar-iyun ayları ərzində rayonda 10 sənaye müəssisəsi, , 97 fərdi sahibkar sənaye fəaliyyəti ilə məşğul olmuşdur.

2019-cu ilin yanvar-iyun aylarında sənaye müəssisələri, habelə fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 24058,4 min manatlıq, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz və ya 2618,2 min manat az sənaye məhsulu istehsal edilmişdir.

Hesabat dövründə sənaye məhsullarının 14,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 78,9 faizi emal, 1,4 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 4,9 faizi isə mədənçıxarma sektorlarında istehsal edilmişdir.

**Sənaye məhsulu istehsalının strukturu**

İstehsal olunmuş sənaye məhsulunun 3908.2 min manatı və ya 16.2 faizi dövlət, 20150,2 min manatı və ya 83,8 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. Qeyri-dövlət sektorunun 1562,8 min manatı və ya 7,8 faizi fiziki şəxslərin fəaliyyəti zamanı yaranmışdır.

2019-cu ilin altı ayı ərzində sənaye müəssisələrində 1699 nəfər çalışmış, onların orta aylıq nominal əmək haqqı 487,4 manat müəyyən olunmuşdur. İşçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 27,1 faiz artmışdır.

(Ardı gələn sayımızda).